Bülleten No: 16 / aprel 2014

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi
Məlumat Hesablama Mərkəzi

Elektron Hökumət Portalı
your gateway to all public services

www.e-gov.az

APREL 2014

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



# "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası"na əsasən informasiya-kommunikasiya texnologiyaları sahəsi üzrə müəyyənləşdirilmiş vəzifələrə və "Azərbaycan Respublikasında 2013-cü ilin "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 mart tarixli 2815 nömrəli Sərəncamına uyğun olaraq qərara alıram:

**1.** "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Milli Strategiyanın həyata keçirilməsi üzrə əlaqələndirici orqan Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi müəyyən edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**3.1.** Milli Strategiyanın həyata keçirilməsi üzrə 2014-2017-ci illər üçün Dövlət Proqramının layihəsini 4 ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;



**3.2.** Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər barədə ildə bir dəfədən az olmayaraq Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 2 aprel 2014-cü il.*

# Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün MİLLİ STRATEGİYA-dan
# ÇIXARIŞLAR

***02 aprel 2014***

*Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

**1. Giriş**

"… İKT ehtiyaclarının ödənilməsi tələb olunur. Bunlara nail olmaq üçün innovativ, rəqabətqabiliyyətli və ixracyönlü İKT potensialının formalaşdırılması, ölkənin regional informasiya xidmətləri mərkəzinə çevrilməsi, kosmik sənayenin inkişaf etdirilməsi və peyk texnologiyalarının geniş tətbiqi, vətəndaşların və cəmiyyətin mövcud imkanlardan, məhsul və xidmətlərdən səmərəli bəhrələnməsi üçün şərait yaradılması və onların İKT biliklərinin, bacarıqlarının və hazırlığının yüksəldilməsi, "elektron hökumət"in inkişaf etdirilməsi və dövlət idarəçiliyinin bütün səviyyələrində elektron xidmətlərdən istifadə edilməsi, həmçinin mövcud İKT infrastrukturunun və İKT istifadəçilərinin informasiya təhlükəsizliyinin təmin edilməsi, yüksəkixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanması, görülən işlərə elmi dəstək verilməsi, ölkənin qlobal informasiya məkanına sıx inteqrasiyası vacibdir."

**2. Cari vəziyyət**

"… 2005-ci və 2010-cu illərdə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə dövlət proqramları, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 may tarixli 136s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2010-2011-ci illərdə "Elektron hökumət"in formalaşdırılması üzrə Fəaliyyət Proqramı" İKT-nin inkişafı ilə bağlı əməli tədbirlərin həyata keçirilməsini təmin etmişdir."

www.e-gov.az

"… Ölkədə "elektron hökumət"in formalaşdırılmasına ciddi diqqət yetirilir və məmur-vətəndaş münasibətlərinin İT vasitələrindən istifadə etməklə sadələşdirilməsi, şəffaflaşdırılması bürokratik əngəllərin qarşısının alınmasına xidmət edir. Ölkədə "elektron hökumət"in zəruri infrastrukturları yaradılmışdır. "Elektron hökumət" portalı artıq fəaliyyət göstərir, dövlət orqanlarının informasiya sistemləri arasında xüsusi infrastruktur vasitəsilə informasiya mübadiləsi aparılır, elektron imzanın istifadəsi üçün infrastruktur və sertifikat xidmətləri mərkəzləri yaradılmışdır. Nəticədə e-imzanın tətbiqi genişlənir, dövlət orqanları tərəfindən müxtəlif elektron xidmətlər göstərilir. Hazırda "Elektron hökumət" portalına qoşulmuş dövlət qurumlarının elektron xidmətləri "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdim edilir. "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixli 813 saylı Fərmanı bu sahədə aparılan işlərə xüsusi təkan vermişdir.

Qeyd edilənlərlə yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradılmışdır ki, bu da qısa müddətdə özünü müsbət təcrübə kimi doğrultmuşdur.»

**"…Mövcud vəziyyətin təhlili aşağıdakı nəticələrə gəlməyə əsas verir:**

ölkənin davamlı inkişafının təmin edilməsi üçün İKT-nin prioritet sahə kimi inkişafı vacibdir;

cəmiyyətin İKT-nin məhsul və xidmətlərinə artan tələbatı təmin olunmalıdır;

iqtisadiyyatın real sektorlarında və bütövlükdə cəmiyyətdə İKT-dən istifadə genişləndirilməlidir;

İKT sahəsində rəqabətqabiliyyətli, ixracyönlü və innovativ iqtisadi potensial gücləndirilməlidir;

İKT sahəsinin normativ hüquqi bazası və dövlət tənzimlənməsi təkmilləşdirilməlidir;

"elektron hökumət"in nüfuz dairəsi genişləndirilməli, göstərilən elektron xidmətlərin keyfiyyəti, əhatə dairəsi artırılmalı və onların tam avtomatlaşdırılmış interaktiv xidmətlər şəklində həyata keçirilməsi təmin edilməlidir;

dövlət idarəçiliyinin bütün səviyyələrində və yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqi genişləndirilməlidir;

əhalinin müxtəlif qrupları, şəhər və kənd yaşayış məntəqələri, iqtisadiyyatın müxtəlif sahələri arasında İKT-dən istifadədə mövcud fərqlilik aradan qaldırılmalıdır;

sahənin yüksəkixtisaslı İKT mütəxəssislərinə olan ehtiyacı ödənilməlidir;

milli-mədəni irsin qorunması, təhsil, səhiyyə, mədəniyyət sahələri üzrə geniş istifadə üçün təyin edilmiş elektron resurslar inkişaf etdirilməlidir;

informasiya təhlükəsizliyi üzrə ümummilli hazırlığın və maarifləndirmənin səviyyəsi artırılmalıdır;

ümumi daxili məhsulda İKT-nin payı inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılmalıdır;

əhalinin, dövlət qulluqçularının və dövlət müəssisələrində çalışan işçilərin İKT üzrə ümumi bilik səviyyəsi artırılmalıdır;

görülən işlərə ictimai təşkilatların geniş cəlb edilməsi üçün tədbirlər görülməlidir.»

**3. Milli Strategiyanın məqsədi və əsas vəzifələri**

«… 3.1.5. "elektron hökumət"in genişləndirilməsi və İKT-nin tətbiqi ilə dövlət idarəçiliyinin səmərəliliyinin artırılması, demokratik prinsiplərin inkişaf etdirilməsi, elektron xidmətlərin yüksək keyfiyyətinə nail olunması;»

**5. İnformasiya cəmiyyətinin formalaşmasında dövlətin rolu**

«… 5.1.6. "elektron hökumət"in inkişafını, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin elektronlaşdırılmasını;

5.1.7. vətəndaşların informasiya əldə etməsi üçün bərabər imkanların və onların münasibliyinin təmin olunmasını;»

**"…6. Milli Strategiyanın əsas istiqamətləri**

6.1. Milli Strategiyanın prioritet istiqamətləri Konsepsiyaya uyğundur və aşağıdakılardan ibarətdir:

6.1.1. İKT infrastrukturu və xidmətləri;

6.1.2. yüksək texnologiyalar sektorunun inkişafı;

6.1.3. yüksək texnologiyaların inkişafı üzrə elmi-texniki potensialın gücləndirilməsi;

6.1.4. "elektron hökumət"in inkişafı;

6.1.5. İKT - cəmiyyətin inkişaf amili kimi;

6.1.6. kadr hazırlığı;

6.1.7. informasiya təhlükəsizliyinin təmin edilməsi;

6.1.8. milli kontentin inkişaf etdirilməsi.»

**"… 10. "Elektron hökumət"in inkişafı**

10.1. Dövlət orqanlarında müasir İKT-nin tətbiqi ilə idarəçiliyin metod və mexanizmlərinin təkmilləşdirilməsi, səmərəliliyinin artırılması, hesabatlılığın və şəffaflığın təmin edilməsi, təqdim olunan elektron xidmətlərin keyfiyyətinin və istifadəsinin artırılması, vətəndaşların dövlət idarəçiliyində iştirakı üçün münasib şəraitin yaradılması bu istiqamətin əsas məqsədlərindəndir.

10.2. Bu istiqamətin məqsədlərinə çatmaq üçün aşağıdakıların həyata keçirilməsi nəzərdə tutulur:

10.2.1. “elektron hökumət” infrastrukturu tələbata uyğun inkişaf etdirilməklə, dövlət orqanları arasında səmərəli və təhlükəsiz informasiya mübadiləsinin təmin olunması;

10.2.2. dövlət orqanlarında informasiya ehtiyatlarının müəyyənləşdirilmiş tələblərə və standartlara uyğun olaraq elektron formaya keçirilməsi və bunun əsasında “Elektron hökumət” portalı vasitəsilə “bir pəncərə” prinsipi ilə elektron xidmətlərin göstərilməsi;

10.2.3. sosial-iqtisadi inkişafın prioritet sahələrində, o cümlədən kənd təsərrüfatı, sənaye, turizm və digər sahələrdə İKT və elektron hökumət həllərinin tətbiqinin genişləndirilməsi;

10.2.4. dövlət orqanlarında elektron sənəd dövriyyəsinin genişləndirilməsi və sənədlərlə elektron formada işi təmin etmək üçün digər zəruri sistemlərin (arxivləşdirmə, təhlillər, hesabatlar və s.) tətbiqinin təmin edilməsi;

10.2.5. dövlət orqanları tərəfindən göstərilən elektron xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi;

10.2.6. “Elektron hökumət” portalının inkişaf etdirilməsi, o cümlədən “şəxsi kabinet”in və dövlət orqanlarına vahid müraciət imkanının yaradılması, “mobil hökumət” texnologiyalarının tətbiqi;

10.2.7. yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarında elektron xidmətlərin təşkili;

10.2.8. elektron xidmətlərin əlçatarlığının artırılması üçün ictimai çıxış məntəqələri şəbəkəsinin genişləndirilməsi;

10.2.9. elektron və mobil imzanın, həmçinin elektron ödənişin tətbiqinin genişləndirilməsi;

10.2.10. vətəndaşların “elektron hökumət” üzrə məlumatlılıq səviyyəsinin yüksəldilməsi;

10.2.11. əhalinin, dövlət qulluqçularının və dövlət müəssisələrində çalışan işçilərin İKT biliklərinin artırılması üçün keçirilən təlimlərin genişləndirilməsi.»

«…16.1.13. dövlət orqanlarında, yerli icra hakimiyyəti və bələdiyyələrdə müasir İKT-nin tətbiqi genişləndiriləcək, effektiv, şəffaf və nəzarət oluna bilən dövlət idarəetməsi və yerli özünüidarəetmə bərqərar olacaq, əhalinin geniş təbəqələrinin idarəetmə prosesində iştirakı həyata keçiriləcək, elektron xidmətlərin keyfiyyəti yüksəldiləcək, bu xidmətlərə mobil rabitə, məlumat köşkləri və digər müasir vasitələrlə çıxış təmin ediləcəkdir;"

## Nazirlər Kabineti elektron xidmətlərlə bağlı dəyişiklik etdi

"Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

**"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 1-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1072, № 12, maddə 1247; 2012, № 1, maddə 40, № 3, maddə 256, № 10, maddə 1016, № 11, maddə 1207; 2013, № 6, maddələr 745, 757, № 7, maddə 868, № 8, maddələr 1005, 1018, № 11, maddə 1466; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 25 dekabr tarixli 349 nömrəli, 2014-cü il 24 yanvar tarixli 20 nömrəli və 6 fevral tarixli 36 nömrəli qərarları) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"na aşağıdakı məzmunda 32.13-cü və 32.14-cü bəndlər əlavə edilsin:

32.13. Vətəndaşların TQDK-nın rəhbərliyinin və məsul işçilərinin qəbuluna onlayn yazılması

32.14. Ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) aparılan təhsilalanların TQDK-nın "Şagird-məzun sistemi"ndə özləri haqqında məlumatları internet vasitəsilə yoxlaması

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**



www.e-gov.az

# Elektron xidmət növlərinin siyahısına yeni bəndlər artırılıb

**Azərbaycan Nazirlər Kabineti "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edib.**

Dəyişikliklərə əsasən, "Elektron xidmət növlərinin Siyahısı"na aşağıdakı məzmunda 3.18-ci, 7.58-ci və 27.6-cı bəndlər əlavə edilib:

3.18. Azərbaycan Respublikasında qeyri-kommersiya hüquqi şəxslərin və təhsil müəssisələrinin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə qeyri-kommersiya hüquqi şəxsin və təhsil müəssisəsinin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərcolunma faktını təsdiq edən sənədin verilməsi.

7.58. Azərbaycan Respublikasında kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə kommersiya hüquqi şəxsin ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərcolunma faktını təsdiq edən sənədin verilməsi.

27.6. Azərbaycan Respublikasında dini qurumların dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə dini qurumun ləğv edilməsi, kreditorların tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatın dərc olunması ilə bağlı müraciətlərin qəbulu və dərcolunma faktını təsdiq edən sənədin verilməsi.

# TQDK-nın göstərdiyi elektron xidmətlərinin sayı artırılıb

**Azərbaycan Nazirlər Kabineti "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edib.**

"ICTnews" elektron xəbər xidmətinin NK-nın rəsmi saytına istinadən verdiyi məlumata görə, dəyişikliklərə əsasən, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) təqdim etdiyi elektron xidmət növlərinin siyahısına "Vətəndaşların TQDK-nın rəhbərliyinin və məsul işçilərinin qəbuluna onlayn yazılması" və "Ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) aparılan təhsilalanların TQDK-nın "Şagird-məzun sistemi"ndə özləri haqqında məlumatları internet vasitəsilə yoxlaması" e-xidmətləri əlavə olunub.

# "Şagird-Məzun" sistemi peşə liseylərinin cari il məzunlarının da işini asanlaşdırıb

**Peşə liseylərinin cari il məzunları üçün 2014-cü il mart ayının 16-da keçiriləcək buraxılış imtahanlarında iştirak edəcək şagirdlər "İmtahana buraxılış vərəqəsi"ni "Şagird-Məzun" sisteminə daxil olub çap edə bilərlər.**

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından (TQDK) verilən məlumata görə, bunun üçün "http://eservices.tqdk.gov.az/sagird2014" internet ünvanına keçib "Şagirdlər üçün" düyməsini basmaq, iş nömrəsi və şəxsiyyət vəsiqəsinin nömrəsini müvafiq sahəyə daxil etmək və "Daxil ol" düyməsini basmaq lazımdır.

Şagird səhifəsində "Buraxılış vərəqi" düyməsini basdıqda ekrana şagirdin buraxılış vərəqəsinin təsviri ötürülür.

Eyni zamanda peşə liseylərinin məsul şəxslərinə də imtahana buraxılış vərəqələrini öz səhifələrinə daxil olub çap etmək imkanı yaradılıb.

Qeyd edək ki, imtahan iştirakçıları "Yaddaş kitabçası"nı da çap edib onunla tanış olmalıdırlar.



# "Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə Qaydaları"nda dəyişikliklər edildi

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 28 sentyabr tarixli 156 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə Qaydaları"nda dəyişikliklər edilməsi barədə




**Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 28 sentyabr tarixli 156 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 760) ilə təsdiq edilmiş "Elektron vergi hesab-fakturalarının tətbiqi, uçotu və istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.1-ci bəndin ikinci abzası çıxarılsın.

2. Aşağıdakı məzmunda 4-1-ci, 4-2-ci və 4-3-cü bəndlər əlavə edilsin:

"4-1. Satıcı elektron vergi hesab-fakturasını Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 iyul tarixli 120 nömrəli qərarı ilə təsdiq edilmiş "Vergi hesabatının elektron sənəd formasında göndərilməsi Qaydaları"na əsasən vergi orqanından alınmış istifadəçi kodu, parol və şifrə, yaxud "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 yanvar 2006-cı il tarixli 27 nömrəli qərarına uyğun olaraq əldə edilmiş gücləndirilmiş elektron imza vasitəsilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internet səhifəsi olan İnternet Vergi İdarəsinə (www.e-taxes.gov.az) daxil olaraq hazırlayır. Elektron vergi hesab-fakturasının tərtib edilməsi, ləğv edilməsi, dəqiqləşdirilməsi, əvəzləşdirilən elektron vergi hesab-fakturaları barədə məlumatların sistemə daxil edilməsi üzrə əməliyyatların həyata keçirilməsi qaydaları Azərbaycan Respublikası Vergilər Nazirliyinin kollegiyası tərəfindən təsdiq edilmiş inzibati reqlamentlə müəyyən edilir.

4-2. Bu Qaydaların 4-1-ci bəndinə uyğun olaraq hazırlanmış elektron vergi hesab-fakturasının təsdiq edilərək göndərilməsini satıcı qismində aşağıdakı şəxslər gücləndirilmiş elektron imza vasitəsilə həyata keçirə bilərlər:

4-2.1. vergi ödəyicisi olan fiziki şəxsin özü və ya hüquqi şəxsin rəhbəri;

4-2.2. bu Qaydaların 4-2.1-ci yarımbəndində qeyd edilmiş şəxsin özü və ödəniş sənədlərini təsdiq etməyə səlahiyyəti olan digər şəxs (şəxslər).".

4-3. Elektron vergi hesab-fakturasının bu Qaydaların 4-2.2-ci yarımbəndinə uyğun təsdiq edilərək göndərilməsinin ödəniş sənədlərini təsdiq etməyə səlahiyyəti olan digər şəxs (şəxslər) tərəfindən həyata keçirilməsinə icazənin verilməsi bu Qaydaların 4-2.1-ci yarımbəndində qeyd edilmiş şəxslər tərəfindən İnternet Vergi İdarəsində yaradılmış "Səlahiyyətlərin idarə edilməsi" menyusundan istifadə edilməklə, gücləndirilmiş elektron imza vasitəsilə təsdiq edilir.".

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur Rasi-zadə**

# Ünvanlı yardım sisteminin avtomatlaşdırılması ilə bağlı tapşırıqlar verilib

**Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov sosial müdafiə sisteminin təkmilləşdirilməsi, ünvanlı yardım sisteminin avtomatlaşdırılması, əhaliyə xidmətin keyfiyyətcə yaxşılaşdırılması ilə bağlı tapşırıqlar verib.**

S.Müslümov ünvanlı sosial yardım üçün müraciət və təyinat prosedurunun tam avtomatlaşdırılması, bu islahatın dəqiq konturlarının və avtomatlaşdırmanın texniki sxeminin, təşkilati detallarının müəyyən edilməsi işlərinin aparıldığını bildirib.

www.e-gov.az

# "Elektron hökumət" portalına növbəti elektron xidmət inteqrasiya olunub




"Elektron hökumət" portalına inteqrasiya olunan xidmətlərin sayı artır. Əmlak Məsələləri Dövlət Komitəsi növbəti elektron xidmətini "Elektron hökumət" portalı vasitəsilə təqdim edib. Xidmət dövlət müəssisə və təşkilatlarının, habelə tam özəlləşdirilməmiş səhmdar cəmiyyətlərinin və nizamnamə fondunda dövlət payı olan hüquqi şəxslərin balansında olan limitdən və tələbatdan artıq minik avtomobilləri və digər nəqliyyat vasitələrinin, o cümlədən normativ-istismar müddəti bitmiş, tam aşınmış, silinməli olan nəqliyyat vasitələrinin və avadanlıqların satışının həyata keçirilməsi məqsədilə təşkil edilən hərraclarda hüquqi və fiziki şəxslərin iştirakının təmin olunması üçün onların qeydə alınması, sifarişlərin qəbulu, seçdiyi əmlakın ilkin satış qiymətinin 10 faizi həcmində behin ödənilməsi ilə bağlı qaydaları müəyyən edir.

Qeyd edək ki, hazırda sözügedən xidmət ƏMDK-nin "Elektron hökumət" portalı üzərindən təqdim etdiyi 17-ci elektron xidmətidir.

# Azərbaycanda əmək müqaviləsi bildirişləri üzrə elektron informasiya sisteminin proqram təminatı hazırlanıb




**Azərbaycan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə (EİS) daxil edilməsi və qeydiyyata alınması prosedurlarını əks etdirən müvafiq qaydalar hazırlanaraq təsdiq olunmaq üçün ölkə hökumətinə təqdim edilib.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata əsasən, qaydalar təsdiq edildikdən sonra elektron informasiya sisteminin "Elektron hökumət" portalı üzərindən tətbiqinə yaxın vaxtlarda başlanacaq. Əmək müqaviləsi bildirişlərinin sistemə daxil edilərək qeydiyyata alınması üçün ƏƏSMN tərəfindən elektron informasiya sisteminin proqram təminatının hazırlanması işləri də artıq başa çatdırılıb. Yeni proqram təminatı işəgötürənlərin qeyd olunan bildirişləri e-imza vasitəsilə elektron informasiya sistemınə daxil edə bilmələri və qeydiyyatdan keçirmələrinin asan şəkildə yerinə yetirilməsinə imkan verəcək.

Eyni zamanda, elektron informasiya sisteminə daxil ediləcək əmək müqaviləsi bildirişlərində işçilərin fərdi identifikasiya kodu öz əksini tapacaq. Bu isə işçilər barədə məlumatların həm əmək hüquqlarına əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan, həm də işəgötürənlər tərəfindən avtomatik rejimdə əldə edilməsinə imkan verəcək.

Elektron informasiya sisteminin işə salınması ilk növbədə işçi hüquqlarının təminatı istiqamətində mühüm addım olmaqla, əmək münasibətlərinin formal olaraq rəsmiləşdirilməsi, yəni bağlanmış əmək müqaviləsinin bir nüsxəsinin işçiyə verilməməsi və yalnız işəgötürəndə olması kimi hallara son qoyacaq.

Beləliklə, elektron informasiya sistemi işçilərin əmək hüquqlarının, eyni zamanda gələcək sosial təminat hüququnun qorunmasında vacib məlumat mənbəyi rolunu oynayacaq. Nəticədə işçi vətəndaşlardan onların iş yerləri, əməkhaqları və s. barədə arayışlar istənilməyəcək, bu barədə müvafiq məlumatları elektron informasiya sistemi vasitəsilə əldə etmək mümkün olacaqdır.

Əmək məcəlləsində edilmiş dəyişikliklərə əsasən 2014-cü ilin 1 iyuluna qədər Azərbaycanda işə götürənlər Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin elektron məlumat sisteminə fəaliyyərtdə olan bütün əmək müqavilələri haqqında məlumatları daxil etməlidirlər. Əks halda, onları 7 mindən 10 min manata qədər cərimə və yaxud 3 il müddətində azadlıqdan məhrum edilmə cəzası gözləyir.

# Dövlət Sosial Müdafiə Fondu Qubada "Elektron xidmətlər şəffaflığın əsas vasitəsidir" adlı regional təqdimat keçirib



**Azərbaycanın şimal bölgəsini təmsil edən sığorta ödəyiciləri və pensiyaçıların iştirakı ilə təşkil olunan tədbirdə Fond tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin hər biri barədə geniş məlumat verilib və slaydlar nümayiş olunub.**

"Elektron hökümət" portalının statistikasına əsasən Dövlət Sosial Müdafiə Fondunun (DSMF) göstərdiyi elektron xidmətlər qısa müddət ərzində ən çox istifadə olunan xidmətlər sırasında ilk yerləri tutub. Fond müntəzəm olaraq elektron xidmətlərin ayrı-ayrı bölgələrdə təşviqi və onlardan istifadə sahəsində maarifləndirmə xarakterli regional təqdimatlar reallaşdırır. Belə bir tədbir martın 7-də Qubada keçirilib.

Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarından olan sığorta ödəyiciləri və pensiyaçıların iştirak etdiyi "Elektron xidmətlər şəffaflığın əsas vasitəsidir" adlı regional təqdimatda əvvəlcə DSMF-nin pensiya sənədləri və müraciətlərlə iş şöbəsinin müdiri Famil Qədimov çıxış edib. O bildirib ki, bu gün Azərbaycanın sığorta-pensiya sistemi ölkə əhalisinin 40 faizindən çoxunu əhatə edir. Fondun mərkəzi məlumat bazasında 1 milyon 276 min nəfər pensiyaçı və 2 milyon 691 min nəfər sığortaolunan barədə müvafiq məlumatlar toplanıb. Ötən il ərzində DSMF-nin həm öz saytı (www.dsmf.gov.az), həm də "elektron hökümət portalı" (www.e-gov.az) vasitəsilə əhaliyə təqdim etdiyi elektron xidmətlərdən ümumilikdə 700 minə yaxın vətəndaş yararlanıb. Hazırda Azərbaycanda müasir avtomatlaşmış əsaslarla fəaliyyət göstərən sığorta-pensiya sistemi mövcuddur və informasiya texnologiyalarının uğurlu tətbiqi nəticəsində Fond tərəfindən əhaliyə təqdim olunan elektron xidmətlərin sayı 19-a çatdırılıb.

Qeyd olunub ki, hazırda bütün ölkə üzrə iri və orta sahibkarlardan hesabatların tam elektron qaydada qəbul edilməsi təmin olunub. «Məcburi dövlət sosial sığortası üzrə hesabatların (B1, B2) və məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumatın (B3) elektron formada qəbulu›› adlı elektron xidmət sığortaedənlərlə DSMF orqanları arasında münasibətlərin sadələşdirilməsinə imkan yaradır, sığorta-pensiya sistemində şəffaflığın daha da artırılmasını təmin edir. Bununla yanaşı, DSMF-nin yerli şöbələrində öz hesabatlarını elektron formada təqdim etməkdə çətinliklə üzləşən xırda sahibkarlara və torpaq mülkiyyətçilərinə kömək məqsədilə "Yardım masaları" fəaliyyət göstərir.

Məcburi dövlət sosial sığorta haqlarının ödənişi real vaxt rejimində onlayn həyata keçirilir. Vətəndaşların gələcək pensiya təminatında, şəffaflığın təmin olmasında mühüm rola malik olan "Sığortaolunanlara məlumatların verilməsi" adlı müasir məlumatlandırma sistemi tam istifadəyə verilib. Bu xidmət vasitəsilə istənilən sığortaolunan onun üçün sığortaedən tərəfindən hər ay üzrə ödənilən məcburi dövlət sosial sığortası barədə məlumatları maneəsiz əldə edə və öz pensiya kapitalına, həm də işəgötürənin onun üçün əməkhaqqına uyğun sosial sığorta haqqı köçürdüyünə nəzarət etmək imkanı qazana bilər.

Fondun internet səhifəsində yaradılmış müştəri xidmətləri sisteminə istənilən vətəndaş daxil olaraq məlumat almaq, pensiya kalkulyatoru vasitəsilə öz pensiyasını hesablamaq imkanı əldə edir. Həmçinin pensiya yaşına çatmış hər bir vətəndaş hər hansı sənəd toplamadan və vaxt itirmədən «Çağrı Mərkəzi» nə zəng etməklə real vaxt rejimində dərhal pensiya təyinatı hüququnu reallaşdırmaq imkanına malikdir.

# Azərbaycan vətəndaşlarının və əcnəbilərin uçotunun aparıldığı dövlət informasiya sistemləri siyahısına yenisi əlavə olunub

Azərbaycan Nazirlər Kabineti 2008-ci il 5 fevral tarixli 28 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının vətəndaşlarına, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə verilən fərdi identifikasiya nömrəsinin daxil edilməli olduğu və həmin şəxslərin uçotunun aparıldığı digər dövlət informasiya sistemlərinin Siyahısı"nda dəyişiklik edib.

Dəyişikliyə əsasən, siyahıya hüquqi və fiziki şəxslərə verilmiş torpaq sahələri üzrə informasiya ehtiyatı da əlavə edilib.

İnformasiya ehtiyatının formalaşdırılması Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən həyata keçirilir.

www.e-gov.az

# Dövlət Sosial Müdafiə Fondu "Sığorta-pensiya sistemində elektron xidmətlər şəffaflığın əsas vasitəsidir" mövzusunda müsabiqə elan etdi

***Dövlət Sosial Müdafiə Fondu "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə tədbirlər planı"nın 2.36-cı bəndinə (sığorta-pensiya sahəsində əhalinin maariflәndirilməsi məqsədi ilə kütləvi informasiya vasitələrindən istifadə olunmaqla müvafiq tədbirlərin görülməsi) uyğun olaraq "Sığorta-pensiya sistemində elektron xidmətlər şəffaflığın əsas vasitəsidir" mövzusunda müsabiqə elan edir.***




**Müsabiqənin şərtləri:**

Müsabiqəyə 01 aprel 2014-cü il tarixdən 01 iyun 2014-cü il tarixədək Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun əhaliyə təqdim etdiyi elektron xidmətlərlə bağlı qəzet və jurnallarda, saytlarda çap edilmiş analitik məqalələr, radio və televiziyada yayımlanmış verilişlər, süjetlər təqdim olunmalıdır.

Məqalələr 5 min işarədən, radio və televiziya verilişləri, süjetlər isə 5 dəqiqədən (müsabiqə dövründə ayrı-ayrı vaxtlarda verilmiş və ümumilikdə 5 dəqiqədən az olmayan telesüjetlər də təqdim oluna bilər) az olmamalıdır. Materiallar 01 iyun 2014-cü il tarixdən gec olmayaraq, hansı qəzet və jurnalda, saytda dərc olunduğu, radio və televiziya kanalında nümayiş etdirildiyi (tarix və nömrəsi) göstərilməklə DSMF-nin aparıcı mütəxəssislərindən ibarət yaradılmış Komissiyaya təqdim edilməlidir.

Müsabiqənin yekunlarına görə ən yaxşı məqalələrin və teleradio materiallarının müəllifləri 2 nominasiya üzrə aşağıdakı qaydada mükafatlandırılacaqlar:

*Qəzet və jurnallarda, saytlarda dərc olunmuş ən yaxşı məqalələr üzrə:*

**1-ci** yer – **800** manat;
**2 -ci** yer – hər biri **500** manat olmaqla iki yer;
**3-cü** yer – hər biri **300** manat olmaqla üç yer.

*Televiziya və radio kanallarında verilmiş ən yaxşı teleradio verilişləri və telesüjetlər üzrə:*

**1-ci** yer – **800** manat;
**2-ci** yer – hər biri **500** manat olmaqla iki yer;
**3-cü** yer – hər biri **300** manat olmaqla iki yer.

Hər iki nominasiya üzrə ümumilikdə 15 həvəsləndirici mükafat - cəmi 1500 manat məbləğində.

Eyni zamanda bildiririk ki, komissiyaya DSMF-nin sədr müavini Zakir Babayev rəhbərlik edir.

**Müsabiqə komissiyası**
**Ünvan:** *Bakı şəhəri, H.Zərdabi prospekti 80*
*Dövlət Sosial Müdafiə Fondu*
**Əlaqə telefonu:** *(+994 12) 434-60-12*




6 aylıq AzDataCom
internet aylıq abunə haqqını
öncədən ödəməklə



pulsuz
Elektron İmza
kartını qazanın

# Dövlət qurumlarının informasiya açıqlığı və elektron xidmətlərin inkişafı" mövzusunda Dəyirmi Masa keçirilib



**Beynəlxalq Mətbuat Mərkəzində Multimedia Mərkəzi tərəfindən "Dövlət qurumlarının informasiya açıqlığı və elektron xidmətlərin inkişafı" mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə dövlət orqanlarının, Vətəndaş Cəmiyyəti subyektlərinin və beynəlxalq təşkilatların nümayəndələri və media nümayəndələri iştirak edib.**

Multimedia Mərkəzinin direktoru Osman Gündüz informasiya açıqlığı üzrə Mərkəzi və yerli icra qurumlarının növbəti Hesabatını və Reytinq Cədvəlini ictimaiyyətə təqdim edib. O, 6 ay ərzində 74 Mərkəzi icra orqanının və 67 Yerli icra hakimiyyətlərinin rəsmi internet resursunun monitorinqinin aparıldığını qeyd edib. O, rəsmi saytların 60 parametr üzrə kəmiyyət və keyfiyyət kriteriyaları və sosial əhəmiyyətlilik səviyyəsi nəzərə alınmaqla informasiya açıqlığı vəziyyətinin analiz olunduğunu bildirilib. Hər bir qurum üzrə araşdırmaların yekunu olaraq icmal və tövsiyələr hazırlandığı diqqətə çatdırılıb, informasiya açıqlığı sahəsində əvvəlki illərlə müqayisədə müsbət irəliləyişlərin olduğunu qeyd edilib.

Monitorinqin nəticələrinə əsasən informasiya açıqlığı üzrə Reytinq Cədvəlində 1-ci , 2-ci və 3-cü yerləri müvafiq olaraq Vergilər Nazirliyi (74%), DSMF (68.5%) və Dövlət Qulluğu Məsələləri üzrə Komissiya (67%) tutub. Sonuncu yerlər isə Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla Əlaqədar Dövlət Komissiyası və Müdafiə Nazirliyinə məxsusdur.

74 Mərkəzi icra qurumları üzrə orta informasiya açıqlığı göstəricisi 39 % ( ötən il 33.5%) olub.

Yerli icra hakimiyyətləri (şəhər və rayon) üzrə orta informasiya açıqlığı göstəricisi isə cəmi 12.7 % ( ötən il : 7 %) olub.

Yerli İcra qurumları arasında 1-ci , 2-ci və 3-cü yerləri Binəqədi İH(22.5%), Sabunçu İH (21.7%) və Yasamal İH(21.6) əldə edib. Şəhər icra hakimiyyətləri içərisində 1-ci yeri Şirvan şəhər İH (22.2 %) tutub.

Bununla belə dövlət qurumlarının, xüsusən də yerli icra qurumların informasiya açıqlığı sahəsində ciddi problemlərin qaldığı da diqqətə çatdırılıb. Cəmi 21 Mərkəzi icra orqanının informasiya açıqlığı üzrə 50%-lik həddi keçə bildiyi vurğulanıb.

İnformasiya açıqlığı sahəsində dövlət qurumları arasında kəskin informasiya bərabərsizliyi olduğu da qeyd olunub. Belə ki cari ildə 10 ən yaxşıların açıqlıq göstəricisi 64 % olduğu halda , sonuncu yerləri tutan 10 dövlət qurumunun açıqlıq əmsalı cəmi 16% dir.

Dəyirmi Masada Multimedia Mərkəzinin Elektron xidmətlərin təşviqi üzrə İctimai Şura ilə birgə hazırladığı "Kütləvi və sosial-ictimai əhəmiyyət kəsb edən xidmətlərin Siyahısı" da ictimaiyyətə təqdim olunub. Siyahıya 120 xidmətin daxil olduğunu diqqətə çatdırıb. Onlardan 83 xidmətin hökumət tərəfindən təsdiq olunan xidmətlər içərisində olmadığını bildirib.

Siyahının hazırlanmasında məqsədin daha vacib və kütləvi tələbat olan xidmətlərin ilk növbədə elektron formaya keçirilməsinə kömək etmək, vətəndaşların elektron xidmətlərdən bəhrələnməsi prosesini sürətləndirmək və şəffaflığı gücləndirmək olduğu bildirilib.

Çıxışlarda həmçinin hələ də açıqlanması məcburi olan informasiyaların xeyli hissəsinin həm Mərkəzi, həm də yerli icra orqanlarının saytlarından əldə edilməsinin mümkünsüzlüyü qeyd olunub. Bu sahədə dövlət nəzarətini həyata keçirməli olan dövlət qurumunun da fəaliyyətinin zəif olması vurğulanıb . Yerli icra orqanlarının informasiya açıqlığı sahəsindəki mövcud vəziyyətin aşağı səviyyədə olması vurğulanıb.

Monitorinqin nəticələrinin ictimailəşdirilməsinin və davamlı olaraq aparılmasının zəruriliyi qeyd olunub.

Təqdimat mərasimində hökumət qurumlarının nümayəndələri, müstəqil ekspertlər, özəl və ictimai sektorun təmsilçiləri, beynəlxalq təşkilatların nümayəndələri iştirak edib. Layihə İREX/USAİD Azərbaycan tərəfindən dəstəklənib.

AZDATACOM
Milli Telekommunikasiya Operatoru
internetin
dəqiq
ünvanı

AzDataCom internet
abunə haqqını
**5** aylıq ödəyin **1 ay,**
**10** aylıq ödəyin **2 ay**
internetdən hədiyyə olaraq
pulsuz istifadə etmək
imkanına sahib olun.



www.e-gov.az

# Elektronlaşma sahibkarların əlavə xərclərini azaldır

**"Azərbaycan dövləti özəl sektorun inkişafına xüsusi önəm verir. Bu baxımdan prezident İlham Əliyev tərəfindən imzalanan "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" fərmanın müstəsna əhəmiyyəti var.**

Əvvəllər iş adamları biznes qurarkən müəyyən qədər vaxt itkisi ilə qarşılaşırdılarsa, bu fərmandan irəli gələn vəzifələrin icrası sahibkarlıq sahəsində vəziyyətin yaxşılaşdırılmasına təkan verəcək, elektronlaşmanı sürətləndirəcək. Eləcə də ölkədə həyata keçirilən İKT quruculuğu sahibkarlığın daha da inkişaf etməsinə təkan verəcək"

Bu fikirləri Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev söyləyib.

O bildirib ki, sözügedən fərman həm də Azərbaycanın Dünya Bankının "Bizneslə Məşğul Olmaq" hesabatındakı mövqelərinin ciddi şəkildə güclənməsinə səbəb olacaq. Bu sənədin əsas məqsədi sahibkarlıq fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınmasıdır: "Sənəd sahibkarların fəaliyyəti ilə məşğul olmaq üçün "bir pəncərə" prinsipinə uyğun elektron qeydiyyatı zamanı prosedur və müddətlərin azaldılmasını nəzərdə tutur".

Bu günədək sahibkarlara tikintiyə icazələrin verilməsi



sahəsində mövcud prosedur və müddətlərin, eləcə də elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində sənədlərin elektron qaydada qəbulunun təşkili müəyyən çətinliklər yaradırdısa, bu fərmandan irəli gələn fəaliyyət zamanı prosedur, müddət və xərclər azaldılacaq.

# Vətəndaşların dövlət qulluğu ilə bağlı komissiyaya ünvanladığı elektron sorğuların statistikası açıqlanıb

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın elektron poçt ünvanına fevral ayı ərzində daxil olan sorğuların statistikası və məzmunu məlum olub.**

Ötən ay ərzində komissiyanın elektron ünvanına 48 sorğu daxil olub. Sorğulardan 13-ü dövlət qulluğuna qəbul qaydaları, 8-i isə digər məsələləri əhatə edib.

Bununla yanaşı, komissiyaya 5 təşəkkür məktubu və ümumi müsahibə ilə bağlı 4 sorğu göndərilib. Hər biri 3 ədəd olmaqla 4, 25 oktyabr və 5, 20 noyabr tarixlərində elan edilən müsabiqənin müsahibə mərhələsinin vaxtı, növbəti müsabiqənin vaxtı və 4, 25 oktyabr və 5, 20 noyabr tarixlərində elan edilən müsabiqədə iştirak etmək üçün onlayn qeydiyyatla bağlı elektron sorğular daxil olub.

Bundan əlavə, komissiyanın elektron poçt ünvanına 3 CV göndərilib.

Ötən ay komissiyaya ünvanlanan sorğulardan 2 ədədi 4, 25 oktyabr və 5, 20 noyabr tarixlərində elan edilən müsabiqənin müsahibə mərhələsi üçün tələb olunan sənədlərlə əlaqədar olub.

Eyni zamanda, elektron poçt ünvanına hər biri 1 ədəd olmaqla müsahibələrin keçirilməsi qaydaları, 4, 25 oktyabr və 5, 20 noyabr tarixlərində elan edilən müsabiqənin müsahibə mərhələsinin nəticəsindən apelyasiya şikayəti ərizəsinin qeydə alınması, komissiyanın səlahiyyətinə aid



olmayan məsələ, eləcə də müsahibə nəticəsindən apelyasiya şikayətinin verilməsi qaydaları ilə bağlı elektron sorğular ünvanlanıb.

Qeyd edək ki, bütün sorğular qanunvericilikdə nəzərdə tutulan müddətdə cavablandırılıb.

# "Elektron hökumət" portalına daxil olanların sayı 317 901 nəfərə çatdı




ŞƏKİL 1

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2014-cü ilin mart ayının 31-ə qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 566 105 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 317 901 nəfər olub. Belə ki, 317 901 nəfər ümumən 566 105 dəfə portala baxıb və 982 325 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 1 993 570 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 56 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 56.3%-ni yeni istifadəçilər, 43.7%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün mart ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 34 062 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 21 394 nəfər olub. Həmin şəxslər 126 600 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 85 025 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 29 saniyə təşkil edib. Mart ayı ərzində portala müraciət edənlərin 51.7%-ni yeni istifadəçilər, 48.3%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 35111-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 319 ədəd olub.




ŞƏKİL 2

# "Azərbaycanda elektron kənd təsərrüfatına dəstək" layihəsinin təqdimatı keçirilib

**Martın 12-də Bakıda "Azərbaycanda elektron kənd təsərrüfatına dəstək" layihəsinin təqdimatı olub. Təqdimatda Kənd Təsərrüfatı və İqtisadiyyat və Sənaye nazirliklərinin nümayəndələri, bir sıra hökumət qurumlarının təmsilçiləri, xarici mütəxəssislər iştirak ediblər.**

Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin Əməliyyat Bölməsinin rəhbəri Federiko Berna, layihənin qrup rəhbəri Salvatore Karfi çıxış edərək "Azərbaycanda elektron kənd təsərrüfatına dəstək" layihəsi barədə ətraflı məlumat verib, bunun həyata keçirilməsinin vacibliyindən və əhəmiyyətindən danışıb, bu sahənin inkişafına töhfə verəcəklərini söyləyiblər.

Təqdimatda vurğulanıb ki, Azərbaycanda elektron kənd təsərrüfatı sisteminin yaradılması vacib məsələlərdən biridir. Avropa İttifaqının dəstəyi ilə ölkəmizdə bu istiqamətdə bir sıra işlər görülüb. Bu ilin yanvar ayından ilkin hazırlıq işləri həyata keçirilib, müvafiq təhlillər aparılıb. Məqsəd subsidiyaların həyata keçirilmə mexanizmini, heyvanların identifikasiyası və torpaqların qeydiyyatı sistemlərini birləşdirərək bu istiqamətdə görüləcək bütün işləri elektronlaşdırmaq və vahid bir mərkəzdən idarə etməkdir. Bu da ölkə əhalisinin kənd təsərrüfatı məhsullarına olan tələbatının yerli istehsal hesabına tam ödənilməsinə imkan verəcək. Yaxın vaxtlarda bu layihənin həyata keçirilməsinə başlanacaq.

www.e-gov.az

## 01.03.2014 – 31.03.2014-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 58390 |
| 2 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 3781 |
| 3 | Sığortaolunanın illər üzrə ödənişləri və pensiya kapitalı | Dövlət Sosial Müdafiə Fondu | 3473 |
| 4 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3429 |
| 5 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2526 |
| 6 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1350 |
| 7 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1278 |
| 8 | Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu | Əmlak Məsələləri Dövlət Komitəsi | 600 |
| 9 | FİN-ə görə fərdi məlumatların axtarışı | Daxili İşlər Nazirliyi | 577 |
| 10 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 525 |

## 01.04.2014-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 39 | 117 | 156 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 31.03.2014 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 12675 | 755 | 5022 | 18452 |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmərlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.04.2014*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 6 | 7 | 14 | 13 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadi İnkişaf Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 36 | 44 | 45 | 45 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 8 | 6 | 6 | 7 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 9 | 12 | 12 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 12 | 12 | 16 | 18 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 1 | 3 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 30 | 30 | 26 | 25 |
| 15 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 16 | 10 | 26 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 2 | 5 | 15 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 15 | 14 | 17 | 17 | 13 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 5 | 7 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 9 | 12 | 14 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 7 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36-1 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 44 | Mərkəzi Seçki Komissiyası | 0 | 0 | 6 | 9 | 0 |
| 45 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 46 | "Elektron hökumət" portalı | | | 2 | | |
| | **CƏMİ:** | **428** | **253** | **319** | **459** | **367** |

www.e-gov.az

## 2014-cü ilin mart ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 1 | 11 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1 | 3 |
| 3 | Energetika Nazirliyi | 2 | 2 |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | - | - |
| 5 | Xarici İşlər Nazirliyi | - | - |
| 6 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | - | - |
| 7 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2 | 2 |
| 8 | Dövlət Gömrük Komitəsi | 4 | 140 |
| 9 | Dövlət Sosial Müdafiə Fondu | 9 | 15879 |
| 10 | Dövlət Statistika Komitəsi | 1 | 2 |
| 11 | Vergilər Nazirliyi | 10 | 782 |
| 12 | Ədliyyə Nazirliyi | 7 | 630 |
| 13 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | - | - |
| 14 | Fövqəladə Hallar Nazirliyi | 3 | 15 |
| 15 | Müdafiə Sənayesi Nazirliyi | - | - |
| 16 | Səhiyyə Nazirliyi | 20 | 282 |
| 17 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 1 | 1 |
| 18 | Diasporla İş Üzrə Dövlət Komitəsi | - | - |
| 19 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | - | - |
| 20 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 7 | 170 |
| 21 | Dövlət Dəniz Administrasiyası | - | - |
| 22 | Təhsil Nazirliyi | 3 | 584 |
| 23 | Gənclər və İdman Nazirliyi | - | - |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 17 | 1429 |
| 25 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 14 |
| 26 | Kənd Təsərrüfatı Nazirliyi | - | - |
| 27 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 6 | 451 |
| 28 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | - | - |
| 29 | Daxili İşlər Nazirliyi | 2 | 539 |
| 30 | Dövlət Sərhəd Xidməti | - | - |
| 31 | Müəllif Hüquqları Agentliyi | 1 | 1 |
| 32 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 1 | 174 |
| 33 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 2 | 117 |
| 34 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | - | - |
| 35 | "AzərEnerji" ASC | 1 | 7 |
| 36 | "AzərSu" ASC | 1 | 121 |
| 37 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 4 | 22 |
| 38 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 32 | 63633 |
| 39 | Xarici İşlər Nazirliyi | - | - |
| | **CƏMİ** | **147** | **85025** |

Elektron Hökumət Portalı

E-GOV - FİKİR BANKI

TƏKLİF GÖNDƏR

https://www.e-gov.az/teklifler

# İnternet istifadəçiləri tərəfindən "Fikir bankı"na göndərilən təkliflərdən seçmələri Sizin diqqətinizə təqdim edirik:

**İstiqamət:** Tələbə Qəbulu üzrə Dövlət Komissiyası

Salam. Bilirik ki, Tələbə qəbulu üzrə dövlət komissiyası hər il tələbə qəbulu keçirir və nəticələri elan edir. Ancaq həmin nəticələr həmin il üçün sadəcə imtahan dövründə qüvvədə olur. Başqa ölkələrdə bu bir neçə ildir. Yaxşı olardı ki bizdədə elə olsun. 2 bəzən sadəcə maddi imkansızlıqdan abuturitentlər və bakalavrlar qəbul olunduğu ixtisasdan imtina edirlər. Ancaq gələcəkdə onların maddi vəziyyəti dəyişmiş ola bilər. TQDK keçmişdəki o baza məlumatlardan istifadə edib cari ilin tarifi ilə onlrı müafiq ixtisasa yerləşdirə bilsə yaxşı olar(müəyyən edilmiş qaydalar əsasında)məncə bu potensialı olan insan ehtiyatlarının yenidən qazanılmasına həmçinin universitetlərin maddi bazasının möhkəmləndirilməsinə gətirib çıxarar.

**ANAR XƏLİLOV**

**İstiqamət:** Daxili İşlər Nazirliyi

Portala daxil oluramsa imkan varsa sürücülük vəsiqəm barədə informasiyanı məndən daha soruşmasın. Bu barədə informasiya onsuzda bazada var. (Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar). Əvvəlcədən təşəkkürlər.

**SAMİR HƏSƏNOV**

**İstiqamət:** Ümumi

İnsanlara faydalı olan bir çox sahələrin elektron portalda yerləşdirilməsi yaxşıdır. Amma kommunal ödənişlər haqqında məlumatlar da bu portalda yoxdur. Təklif edirəm ki, bu sahəyə də yer verilsin.

**ELVİN ADGÖZƏLOV**

**İstiqamət:** Ümumi

Təklif edirəm ki, ölkədə fəaliyyət göstərən bütün tibb müəssisələrində həkimlər tərəfindən yazılan reseptlər kağızsız, yəni elektron formaya keçirilsin. Xəstə dərman almaq üçün apteka müraciət etdiyi zaman ona verilmiş barkoda əsasən aptekdə çalışan əməkdaş dərman reseptini online görə bilsin. Bununla kağız istifadəsinə qənaət edilmiş olar. Həmçinin həkimlərin xətt problemi və məsuliyyət məqamları öz həllini tapmış olar. Təşəkkür edirəm!

**ORKHAN MAMMADOV**

**İstiqamət:** Ümumi

Salam. Çox yaxşı olardı ki, mənzil istismar sahələri tərəfindən verilən 2 saylı arayışı Elektron Hökümət Portalı vasitəsilə almaq münkün olsun. Bu xidmət alınsa, Elektron Hökümət Portalının böyük naliyyəti olar. Respublika vətəndaşları hər gün bu 2 saylı arayışın alınmasında maddi və mənəvi əziyyət çəkirlər. Heç bu 2 saylı arayışın dəqiq dövlət rüsumunun məbləğini bilən də yoxdu.

**TELMAN ƏZİM-ZADƏ**

**İstiqamət:** Təhsil Nazirliyi

Salam. Mən təklif edirəm ki, Təhsil Nazirliyinin "Elektron hökumət" portalında xüsusi bir xidməti yer alsın. Bu xidmət vasitəsilə ali məktəblərdə imtahan vaxtı düşən bəzi mövzular var ki, onlar hər il universitetlərdə eyni kitablardan düşür. Həmin kitabları isə mütləq gedib kitabxanalardan tapırıq. Yaxşı olar ki, tələb olunan əlavə kitabların elektron versiyası olsun. Bu bütün universitet tələbələri üçün vahid sual bazası olsun.

**ELÇİN BAYRAMOV**

**İstiqamət:** Tələbə Qəbulu üzrə Dövlət Komissiyası

Salam, Mən şəxsən TQDK-nın şəffaf və yüksək səviyyəli imtahanlar kecirməsinin şahidiyəm və nəticələrdən çox razıyam. Hər bir imtahan iştirakcısı üçün müəyyən məbləğdə maddi vəsait ayrılır. TQDK çox şaxəli qəbul imtahanlarını həyata keçirir. Lakin heçdə qəbul olunan və tələbə (rezident) adını qazananların əksəriyyəti təhsil programını axıra qədər davam etdirmirlər. Misal üçün rezidenturaya qəbul olunanların böyük əksəriyyəti təhsilinin ilk ilində Almaniya və ya TUS kimi tanınan təhsil programlarında davam etdirməklə ölkəni tərk edirlər və nəticədə həmin yerlər boş qalır. Yaxşı olardı ki TQDK müəyyən şərtlər qoymaqla həmin yerlərin axıra qədər tutulmuş olmasını təmin etmiş olsun. Misal üçün qəbul olunan rezidentlər dövlət qarşısında təklif olunan təhsil programını sona qədər davam etdirəcəklərini və təhsilin sonunda ən azi 2 il müddətinə müvafiq tibb müəssələrində calışaraq həkim tibb personalının güclənməsinə daxili köməklik göstərəcklər. Bu bir növ rezidentlər üzərinə məsuliyyət və eyni zamanda göstərilən əməyin hədər getməməsi deməkdir. Tələbə və rezidentlər öz seçimlərində tam sərbəst huquqa malikdirlər, əgər xaricdə oxumaq istəyən varsa həmin şərtlər onlara məhdudiyyətlər qoymaqla doğru hədəfə istiqamətləndirmiş olacaq.

**MEHDİ MEHDİYEV**

© 2014 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az

SYSTEM CERTIFICATION ISO 9001 SGS

UKAS ENVIRONMENTAL MANAGEMENT 005